KASPI 2020.- 15 yanvar.- S.9.

# Turizmin təbliğatçısı olacaq nəşr

## "Experience Azerbaijan" jurnalı təqdim edildi




**"Azərbaycan həqiqətən sürprizlərlə dolu nağıllar ölkəsidir. Ona görə də, bizə təklif etdiyi hər şeyi araşdırmağa kömək edək: dağlardan tutmuş palçıq vulkanlara, xalçalardan, qalalardan tutmuş Xəzər dənizinə qədər..."**

Azərbaycan Turizm Bürosu tərəfindən nəşr edilən "Experience Azerbaijan" tanıtım jurnalında yer alan bu fikirlər oxucunu istər-istəməz bu heyrətamiz ölkə ilə tanışlığa səsləyir. Jurnalda Azərbaycanın turizm potensialı, görməli yerləri, turizmin müxtəlif növləri üzrə ixtisaslaşmış məkanları, hər il keçirilən festivallar, turistlərin diqqətini cəlb edən milli bayramlar, adət-ənənələr, milli mətbəx nümunələri və s. barədə ətraflı məlumat təqdim olunub.

Yerli və beynəlxalq peşəkarlar tərəfindən hazırlanan jurnal, Azərbaycanın xaricdə yerləşən bütün səfirliklərində, beynəlxalq sərgi və yarmarkalarda, o cümlədən ölkəmizdə fəaliyyət göstərən əksər hotellərdə paylanılır.

"Experience Azerbaijan" jurnalının təqdimat mərasimində çıxış edən **Azərbaycan Turizm Bürosunun Baş icraçı direktoru Florian Zenqstşmid** nəşrin xarici vətəndaşlara Azərbaycan haqda ətraflı məlumat təqdim etdiyini qeyd etdi. Belə ki, bu tip nəşrlər təbliğat metodu kimi mühüm rola malikdir: "Bu cür təbliğat turizmdə marketinqin əsas hissələrindən biridir". F.Zenqstşmid məlumat verdi ki, bu ilin birinci rübündə Qazaxıstan, Ukrayna, Cənubi Koreya və Yaponiyada Azərbaycanın turizm nümayəndəlikləri açılacaq: "2020-ci ildən Böyük Britaniyadan turistlərin cəlb edilməsi nəzərdə tutulur. Bu il ərzində İspaniyada böyük bir turizm forumu keçiriləcək. Orada iştirak etmək Cənubi Avropadan turist cəlb edilməsi baxımından faydalı olacaq. Bu ilin sonunda həmçinin Parisdə keçiriləcək sərgidə də iştirak planlaşdırılır. Eyni zamanda, Azərbaycana gələnlərə öz dostluğumuzu təklif etməyi düşünürük. Biz öz müştərilərimizə mədəni şəkildə müraciət etməyə çalışacağıq. Biz bilirik ki, yeni bir istiqamət açarkən bu yöndə çalışmaq lazımdır". Təqdimatı keçirilən "Experience Azerbaijan" jurnalının nəşrindən danışan baş icraçı direktor diqqətə çatdırdı ki, nəşr tam olaraq yerli məhsuldur və beynəlxalq redaktorların iştirakı ilə dərc edilib: "Jurnaldakı şəkillər Azərbaycan fotoqraflarının əməyinin məhsuludur. Nəşrdəki materiallar çox maraqlıdır. Eyni zamanda, oxuculara lazımi tövsiyələr də yer alıb". F.Zenqstşmid fevral ayında Turizm Agentliyinin yeni turizm portalının da istifadəyə veriləcəyini qeyd etdi: "Bu portalda "booking" planlama işləri də görüləcək". O, ötən ilin nəticələrinə toxunaraq 2019-cu ildə Azərbaycanda turizm sahəsində rekord nəticə əldə edildiyini qeyd etdi: "Ötən il Azərbaycana 3,2 milyon turist səfər edib. Turizm sahəsində artım 11,4 faiz olub. Artım Avropa ölkələri ilə müqayisədə, xüsusilə çox olub. Asiya bazarı üzrə isə daha aşağı artım müşahidə edilib. Bu o deməkdir ki, biz artıq öz marketinq strategiyamızda yeni yollar müəyyən etməliyik. Başa düşməliyik ki, turistlər daha etibarlı kommersiya qurumlarına ehtiyac duyurlar". F. Zenqstşmidin sözlərinə görə, 2020-ci ildə turizm sahəsində təxminən 10 faiz artım gözlənilir: "Daxili şərait nəzər alınsa, bu, çox yaxşı artımdır". Baş icraçı direktor viza məsələsinə də toxundu: "Azərbaycan Turizm Bürosu olaraq çalışırıq ki, vizanın əldə olunması üçün çətinliklərin daha da azaldılmasına nail olaq. Biz mübarizə aparacağıq ki, daha çox ölkə rahat şəkildə viza ala bilsin".




"Experience Azerbaijan" **jurnalının redaktoru Tom Marsden** Azərbaycana səyahət edən turistlər üçün nəşrin əhəmiyyətli bir vasitə olacağına əminliyini bildirdi: "Mən 6 il əvvəl Azərbaycana gələndə bu ölkənin yalnız neft və qaz sərvətlərinin olması haqqında məlumatlı idim. Burada yaşadığım müddətdə Azərbaycanın çox zəngin mədəniyyətə, tarix və adət-ənənəyə malik olduğunu gördüm. Bütün bu dəyərlərin yer aldığı jurnal inanıram ki, oxucuların xoşuna gələcək. Əsas məqsədimiz bu standartları qorumaqdır. Jurnalda "Azərbaycan harada yerləşir, mədəniyyəti necədir və s." kimi məlumatları Azərbaycan insanlarının dili ilə çatdırmağa çalışmışıq. Məqsədlərimizdən biri insanları Azərbaycana gəlmək üçün ilhamlandırmaqdır. Bunun üçün jurnalda Azərbaycanın görməli yerlərini əks etdirmişik. Həmçinin ölkənin inanılmaz rəngarəngliyini açmağa çalışmışıq. İstəyirik ki, jurnal Azərbaycana gələnlər üçün bələdçi rolunu oynasın. Ona görə də, nəşrdə turistlər üçün çoxlu tövsiyələr yer alıb. İnanırıq ki, səyahət edən insanlar üçün Azərbaycanla tanışlıqda bu jurnal bir vasitə olacaq".

Qeyd edək ki, 5 min tirajla yayımlanan və ölkəni beynəlxalq arenada təbliğ edən "Experience Azerbaijan" jurnalı ildə iki dəfə dərc olunacaq. Jurnalı onlayn formada, bu keçiddən (http://bit.ly/35Qn8qu) istifadə edərək, pulsuz əldə etmək mümkündür.

**Təqdimatda iştirak etdi**
**Təranə Məhərrəmova**